# DAŞ TANRISI



Nəcməddin MÜRVSSTOV

## Proloq

Dayanmışam qarşısında, seyr edirəm bir heykəli,
Çaş qalmışam-ürəyi var görən onun, varmı dili?
Baxışları necə isti, necə yumşaq, necə həlim,
Heyrətdəyəm, mat qalmışam, saçlarımı yolur əlim.
O gözlərə, o bəbəyə işıq, nuru kim verib, kim?
Mümkündürmü həkk oluna, yarəbb, daşa ağıl, bilim?
Sanki duyur, hiss eləyir ürəyimdən keçənləri,
Nəql eləyir mənə heykəl ötənləri, keçənləri.
Bir oğuldum-cavan, cəsur, dəliqanlı bir ər igid,
Vətənimə qurban deyib verdim canı, oldum şəhid.
Qədir bilən el dilində əzbər oldu, əzbər adım,
Ölümümlə şərəfləndim, gündən-günə hey ucaldım.
Adi deyil bu gördüyün, yaşayıram bir canlıtək,
Yaradanın ürəyindən bəxş eyləyib mənə ürək.
Əllərinin hərarəti hopub bütün vücuduma,
O çevirib göz nurunu yana-yana göz nuruma.
Bilirəm ki, sevinc nədir, kədər nədir, dərd nədir, qəm,
Səninkitək mənimkidir bu göy səma, dünya, aləm.
Bir insandır, aqil insan, uca Tanrım, Yaradanım,
Onunkudur daş cismimdə hissim, duyğum, ruhum, canım.

## Söhbətimiz

Əyləşib önümdə bir aqil insan,
Müdriklik oxunur baxışlarından.
Çöhrəsin bürüyüb işıq, nur seli,
Yumşaq saçlarını darayır əli.
Məhrəmlik duyulur iliq səsindən,
Danışır sənətin möcüzəsindən.
Deyir ki, insanlar yaranışından,
Dünyanın torpağı, qumu, daşından
Bənzərlər yaradıb həvəslə, zövqlə
Yanğıyla, ağrıyla, əzabla, şövqlə,
Qobustan daşları, qayalara bax,
Rəsmlər yaranıb eradan qabaq,
Susur, seyr edirəm bu dahini mən.
Qorxuram ayırım düşüncələrdən,
Görərək dəyişib tamam əhvalı,
Gizlədim qəlbimdə necə sualı.
Siqaret yandırıb bir qullab vurur,
Deyən xəyalların göyə uçurur.
Baxır burum-burum qalxan tüstüyə,
Bilməm pıçıltıyla danışır niyə?
Ən böyük yaradan uca yaradan,
Ondadır hüdudsuz, bənzərsiz imkan.
Dünyaya, aləmə, kəhkəşana bax,
Dərk etsən gördüyün heyrətdir ancaq.
Ana təbiətin gözəllikləri
İlahi qüvvədən verir xəbəri.
Hər varlıq bir sirdir ,hesabsız sual,
Yox cavab çoxuna, imkansız kamal,
Eh, qardaş, nəyik biz onun önündə,
Odur yaranışın duran fövqündə.
Allahın istəyi olmazsa heç kəs
Başlamaz bir işi, sona yetirməz.
Azacıq bacarıq bəxş edib mənə,
Deyib ki, yiyələn daş sənətinə.

## Xatirə

Dünyaya gəlmişəm ucqar bir yerdə,
Yox heç bənzəri də, inan ki, kəndə.
Vardı iki evi, beş-on ağacı,
Dərəsi, təpəsi, dağı, yamacı.
Uşaqlıq çağımın olub oylağı,
Orda da dadmışam ilk ömür dağı.
Çox erkən tərk etdi bizi anamız,
Çatmadı bir kəsə dad-fəryadımız.
Yetimlik yükünü daşıdıq birgə,
Üç qardaş, cüt bacı,məşum bir kölgə
Gərdi üstümüzə öz qanadını,
Görməyib məhəbbət, sevgi dadını,
Məktəbdə böyüdük, yetimxanada,
Yoxdu heç olmazsa ögey ana da.
Deyirlər yetimin üzü bərk olar,
Böyütdü bizi də acı ruzigar.

Uşaqlıq çagımdan başladım işə,
Suvaqçı sənətin seçmişdim peşə.
Axşam məktəbini bitirdiyim il
Gəlmirdi ağlıma heç ali təhsil.

Ötdü illər keçdi, bir gün qardaşım
Təkcə məsləhətçim, həm də sirdaşım.
Göstərdi qəzetdə kiçicik elan.
Dedi ki, bacarıb çıxsan sınaqdan,
Məşhur rəssam olub taparsan uğur,
Elinə, obana bəxş edib qürur,
Özünə ev-eşik, ocaq qurarsan,
Sən də fərqlənərsən, öndə durarsan.
Tezcə hazırladım sənədlərimi,
Bilmədim pul üçün arayım kimi.
Qardaşım dadıma yetişdi yenə,
Gətirib birinin təzə evinə
Dedi :-Suvaq işin görsən əgər sən,
Lazım olan pulu əldə edərsən.
Çalışdım, inan ki, üç gün, üç gecə,
Vallah ki, lap matam o vaxtlar necə
Dözüb tab etmişəm bu ağırlığa.
Yəqin arzu, istək, həm cavanlığa
Bağlıymış canımda olan hünərlər,
Göstərir özünü indi o günlər.

Müxtəsər, Bakıya mən gəldiyim gün
Dəyişdi axarı bütün ömrümün.
Allah yol açırdı elə bil mənə,
Düşmürdü bircə yol işim düyünə.
Susdu, gülümsədi, güldü bir xeyli,
Qəbulda başına gələn məzəli
Neçə əhvalatı danışdı yenə,
Şuxluq yaraşırdı, bəzək üzünə.
Məktəbə girəndə gördüm bir kişi
Əyləşib sakitcə, sanki yox işi.
Alıb vərəqlədi sənədlərimi,
Süzüb başdan-başa qədd-qamətimi,
Dedi ki, göstərim gərək sərgimi.
Eşib, qurdalayıb tez ciblərimi,
Əskiyə bükülmüş kiçik heykəli,
Xırda dəftərçədə bir neçə şəkli
Böyük təmtəraqla, şəstlə çıxartdım,
Qoyub qarşısına özümü dartdım.
Baxdı, seyr eylədi o məni xeyli,
Sonra da yavaşca, amma gileyli
Sordu ki, a bala, de nədir bunlar,
Belə sərgi olar, belə iş olar?
Basmışdı canımı xəcalət təri,
Yığıb yumurlayıb tez əsərləri
Tələsik özümü qapıya atdım.
Sandım ki, ən böyük arzuya çatdım,
Çağırdı geriyə, dedi:-bəri gəl,
Həqiqət belədir, işin çox əngəl,
Bil ki, düz dördcə gün verirəm sənə,
Çəkib neçə şəkil göstərsən mənə,
Bəyənsəm, sonra da versən imtahan,
Olarsan tələbə bax, bax o zaman.
Nabələd gəzsəm də neçə mağaza,
Inan, rast gəlmədim bir ağ kağıza.
Neyləyim, çarəsiz məəttəl qaldım,
Iri bir siyasi xəritə aldım.
Qayıtdım rayona həmin o gecə,
Doğrayıb kağızı bilmirəm necə
Yatmayıb sübhədək çəkib şəkillər,
Bunu edib hesab böyük bir hünər
Çatdırdım özümü tezdən məktəbə,
Yenə həmin kişi, həmin mərtəbə.
Götürüb eynəyi gözünə taxdı,
Təəccüb hissiylə üzümə baxdı.
Sordu ki, a bala, niyə gəlmisən?
Bir günə sən neçə şəkil çəkmisən?
Itirdim özümü, bu halətimdən
Töküldü şəkillər yerə əlimdən.
Baxıb seyr edirdik xəritələri,
Tutmuşdu alnımı xəcalət təri.
Yığıb tez çevirdim onları bir-bir,
Kişi hal əhliymiş, göstərib səbr
Məni qınayaraq dedi: - bala, sən
Dörd gün vaxt vermişdim, çox tələsmisən.
Ancaq götürəcəm sənədlərini,
Göstər imtahanda öz hünərini.
Sənədi götürən zaman dedi qız:
Gətir imtahana sən karkas yalnız.
Inan ki, uçmağa yoxdu qanadım,
O gündən özümü tələbə sandım.
Çatdı imtahana getmək məqamı,
Axtarıb sorsam da neçə adamı,
Deyən tapılmadı bəs nədir karkas.
Çarəsiz qardaşım dedi:-qulaq as,
Gedib soruşarsan yoldaşlarından,
Orda da tapmağa edərsən imkan.

Neçə sualıma neçə cavabı
Söylədi uşaqlar edərək tabı.
"Üç","dörd","beş" alaraq verdim imtahan,
Eh, çıxmaz o günlər heç vaxt yadımdan.
Qurtardım məktəbi, dedilər yenə
Imkan var, davam et öz təhsilinə.
Tək iki nəfərdi göndəriş alan,
Bir məndim, bir də ki, bir başqa oğlan.
Qalıb işləməyə vermişdim qərar,
Eşidib qınadı lap çox uşaqlar.
Getdik yoldaşımla birgə Tiflisə,
Izin ver, sözümü eyləyim kəsə,
Tarixdən ikiylə geriyə döndüm,
Bu haqda lap xeyli, xeyli düşündüm.
Yoldaşımdan fərqli, ixtisası mən
Bilirdim deyəsənçox-çox dərindən.
Bununçün də verdim yekun qərarı:
Götürüb boynuma hər əzabları,
Mən bu imtahanı yəqin verəcəm,
Tiflisdə məktəbə mütləq girəcəm.
Eləcə də oldu, o biri ildə
Tez gəldim Tiflisə yayda, tətildə,
Götürən zaman qız sənədlərimi,
Görüb ixtisasdan qiymətlərimi,
Söydü kimlərisə hiddətlə yaman,
Dedi zərrə qədər olma peşiman.
Çalışıb azacıq sən səy eyləsən,
Inan ki, əhdinə yetə bilərsən.
O il qəbul oldum Akademiyaya,
Dönmüşdü sevincim selə, dəryaya.
Yoxdu bölüşməyə bir nəfər yaxın,
Baxın, ay qardaşım, bir dərdə baxın.
Üç il sonra bildim var xeyirxahım,
Sənəd götürən qız, aman Allahım,
Tapşırıb təkidlə rəfiqəsinə,
Deyib ki, köməklik göstərsin mənə.
Bir"böyük oğlu"nun yerin tutmuşam,
Bilmədən döyüşü asan udmuşam.
Qızlar cəzalanıb məndən ötrü sərt,
Bunları eşidib olsam da çox pərt,
Artıq çox gec idi, çatdı hünərim,
Böyük insanlığa tək baş endirim.
Gəzdim ittifaqın neçə şəhərin.
Sənət dünyasının ən nəhənglərin
Gördükcə,bu işə artdı məhəbbət,
Yanğıyla bilikdən bir böyük vəhdət
Yarandı içimdə illər ötdükcə,
Aldı ağuşuna yeni düşüncə:
Mümkünmü görəsən əsər yaradım,
Düşsün tarixlərə əbədi adım.
Şöhrətçün deyildi, inan, doğrusu,
Atanın, ananın övlad arzusu
Tək bir istək idi, nur dolu istək,
Bu işə can qoymaq, can qoymaq gərək.
Indi müəlliməm Akademiyada
Dərs deyib borcumu verirəm burda.
Ürəkdən sevirəm müdavimləri,
Ömrümün mənalı, ən xoş günləri
Onlarla bir yerdə olan çağımdır,
Adi arzuları ürək qayğımdır.
Qurmuşam əlimlə emalatxana,
Elə həvəslə ki, Vallah hər yana
Səs düşüb, eşidən görmək istəyir,
Kimi pul vəd edir, bölmək istəyir,
Orda görüşümə gəlir ilhamım,
Orda daşa köçür varlığım, canım.
Evliyəm, varımdır iki övladım,
Budur tamam-kamal ömrüm, həyatım.

Susdu, bildim daha artıqdır sual,
Beynimdə bir fikir yer tutdu dərhal.
Bəlkə, heykəllərlə qurum söhbəti,
Onlar yəqin deyər çox həqiqəti.

## Ana heykəli ilə söhbət

Bir ana heykəli önündə durdum,
Səssiz salam verib halını sordum.
Dedi yavaş danış, bax neçə balam
Şəhid yatıb burda, Vallahi laylam
Yandırır dilimi, dodaqlarımı,
Sənsə soruşursan, oğul, halımı?
Kəsildi bu sözdən taqətim, heyim,
Çaşmışdım, getmirdi canımdan keyim.
Sanki rəhmi gəldi ananın mənə,
Şirin, şəkər qatdı məlhəm səsinə.
Dedi:-yaradanım, o böyük ustad
Köksündə dərd, ağrı, ələmlə fəryad,
Yondu sal bir daşdan, qayadan məni,
Qoyaraq bu işə öz ürəyini,
Bilmədi nə gündüz, nə axşam, gecə,
Inan, həsrət qalıb adi sevincə
Ayrıldı dünyadan ruhuyla tamam,
Sehr, möcüzəydi nur işıqlı şam.
Əvvəl köksüm altda ürək yaratdı,
Yoğurdu əliylə qanını qatdı,
Min ana sevgisi, min ana dərdi
Köçürdü, qəlbimi muma döndərdi.
Hər an xatırlayıb öz anasını,
Saxlayıb ürəkdə ona yasını,
Hönkürdü, ağladı, hıçqırdı bəzən,
Saçımda, üzümdə, gözümdə gəzən
Əli, barmaqları sığal çəkirdi,
Hiss-duyğu köçürür daşa, əkirdi.
Hər qırış köksümdə döndü şırıma,
Döndü ağrıları ürək ağrıma,
Sel etdi gözümdə gözünün yaşın,
Ağartdı saçımla birgə öz başın.
Tutdu boğazımı hıçqırıqları,
Namusu, qeyrəti, arı, vüqarı,
Nəqş etdi canında olduğu kimi,
Verdi, qoru saxla dedi sirrimi.
Cismimdə nəfəsi isti yaratmış,
Inan, məndə daşdan əsər qalmamış.
Duyuram ətrafı, bütün dünyanı,
Seçirəm yaxşını, pisi, yamanı.
Anayam, götürüb od kipriyimlə,
Dərd, ağrı daşıyan bu taleyimlə
Çoxdan barışmışam, ay oğu, bala,
Şəhid oğullara bir yeni layla
Hər gün söyləməsəm bağrım çatlayar,
Qınayar, qınayar məni məzarlar-
Deyərək başladı qəmli avazla,
Ağrıyla oxudu göz dolu yaşla:

Qurban deyib can Vətənə,
Tez büründün ağ kəfənə,
Novcavanım, indi sənə
Yetmir ünüm, yetmir haray,
Laylay, şəhid balam, laylay.

Tez soldu gülşənim bağım,
Demir çarə solum, sağım.
Düşmür dildən laylam, ağım
Sirdaşımdır ah ilə vay,
Laylay, şəhid balam, laylay.
Susdu, ağır sükut sıxdı cismimi,
Bilmədim qatlayıb nə vaxt dizimi
Böyüklük önündə endirmişəm baş.
Gələrək özümə mən yavaş-yavaş
Dinlədim sonrakı hekayətləri.
Bu daş tanrısının böyük hünəri
Ananın dilindən səsləndi belə
Dedi: oğul bala, bir fikir eylə,
Tək bircə suala yoxdur cavabım,
Onu tanrım sanım, ya ki, övladım,
Axı ana bilir məni özünə,
Sataşcaq baxışım hərdən gözünə,
Bir oğul sevgisi görürəm , inan.
Mən də çox sevərək çox-çox canımdan
Həm oğlum bilirəm, həm də ki, tanrım,
Budur son düşüncəm, yekun qərarım.

Heyrət yaradana, uca Allaha,
Yoxdur başqa sözüm, yox, yoxdur daha.

Ağsaqqal heykəli ilə söhbət
Salam, ay ağsaqqal-deyib dayandım,
Heykəli özümtək bir canlı sandım.
Qaldırıb baxışın zənn ilə baxdı,
Sanki, gözləyirdi məni nə vaxtdı.
Durub seyr edirdik biri-birini,
Silərək alnımın soyuq tərini
Dayandım qurumuş, dayandım mat, lal,
Çulğadı canımı ağır bir sual:
Yarəbb, bu necə iş, necə bir əməl,
Bumu heykəl görən, ya ki o heykəl?

Tanıyıram bu insanı lap yaxından,
Xəbərdaram həm ağlından, kamalından.
Dərrakəsi çoxlarını qoyubdur mat,
Çox mənalı ömür sürüb, çətin həyat
Qismətinə düşüb bəzən, heç sınmayıb,
Bərbəzəkli deyimlərə aldanmayıb.
Fikri qəti, sözü aydın, dürüst, dəqiq,
Bənzərsizdir kəlməsində hikmət, məntiq.
Dayanmayıb, hey yaradıb, tikib, qurub,
Başladığı iş qalmayıb, başa vurub.
Qanmayana öz sözünü söyləyib sərt,
Deyirlər ki, ər kişidir mərd oğlu mərd.

*(Davamı 16-cı səhifədə)*

*(Əvvəli 15-ci səhifədə)*

# DAŞ TANRISI



Diksindim səsinə-dedi: a bala,
Görürəm dalmısan dərin xəyala,
Duyuram qəlbindən mən keçənləri,
Adi bir insanın deyil hünəri
Yaratsın sənətdə belə möcüzə,
İnan ki, gecəni nurlu gündüzə
Çevirmək, işindən deyildir asan,
Yox deyil, yox deyil o adi insan.
Dinlə, başa salım, ay oğul, səni,
Tutaraq çox uca öz sənətini,
Əzaba, zillətə canını qatmış,
Məni sal bir daşdan necə yaratmış?
Əvvəl qərar tutdum düşüncəsində,
İşində-gücündə, gəzintisində,
Onunla birgəydik ayrılmaz dosttək,
Olmuşdum qəlbində ən böyük istək.
Düşünür-daşınır, fikir edirdi,
Uçur xəyalları göyə gedirdi.
Adicə cizgini tapdığı zaman,
Sevincdən çıxırdı adı yadından.
Xarakter, hiss, duyğu axtarışları,
Daxili aləmi kəşfi, qərarı,
Üzərək canını əldən salsa da,
Unudub özünü, ac-suz qalsa da,
Cəhd üstdən cəhd edib hey dönə-dönə,
Əzabkeş beyninə, həm ürəyinə
Tam əmin-arxayın olana qədər,
Yarəb, ötdü neÇə ağrılı günlər.

Ən mübhəm sirləri çıxardı üzə,
Gizlənən daxildə, gəlməyən gözə
Mətləblər açılıb faş olan zaman
Yarandı önündə gördüyün "insan".
Niyə çaş qalmısan?-Oğul, axı sən
Məni onun kimi dərk etməmisən.

Yonmaq nə çətin iş onun əlində,
Kamilsə əvvəldən öz sənətində.
Yox, surət deyiləm, kəşfəm, ixtira,
Örnəyəm həyatda çox canlılara.
Ağıl, kamal, hikmət, namus, qeyrət, ar,
İradə, mətinlik, hünər, həm vüqar,
Bax, necə həkk olub, ay oğul daşda,
Onunçün danışır səninlə daş da.
Dil verib, səs verib, işıq gözümə,
Özüm məəttələm, özüm-özümə.
Daha nələr deyim, budur qısası,
O daş tanrısıdır, bir daş tanrısı.
İnan, tutulmuşdu heyrətdən dilim,
Yenə saçlarımı yolurdu əlim.
Bakıya gedirəm, bu uzun yolu
Baxıb seyr etdikcə həm sağı, solu,
Tutur düşüncəmi min neçə sual,
Yaratmaq eşqiylə bağlı bir əhval
Aparır Rəcəblə görüşə məni.
Dinləyib diqqətlə söhbətlərini
Özümə çox qeydlər götürüm gərək,
Görən danışacaq, bir söz deyəcək?

## Emalatxanada

Heykəllər yaranan emalatxana,
Döyüküb baxıram o yan-bu yana.
Baxışlar duyuram öndən, arxadan,
Axı yoxsa burda bir başqa insan
Hardan tutub belə hisslər canımı?
Duyub qəlbimdəki həyəcanımı,
Söhbətlər açaraq ordan-buradan,
Danışır vurğuntək Mikelancelodan.
Əslən bu italyan ulu sənətkar,
Canında yanğılar, sancı, ağrılar,
Şövqlə, ehtirasla əsər yaratmış,
Bu işə özü də heyrətdə qalmış.
Dəlilik həddinə çatan o ustad,
Köksündə fırtına, güclü bir fəryad,
Çağırmış, bağırmış, yalvarmış, demiş,
Dur, dur, dur ayağa əlim dəyməmiş,
Söhbət dinləməyə varmı, de, halım,
Mümkünmü burada biganə qalım?
Hər yandan bir heykəl çağırır məni,
Boşaltmaq istəyir öz ürəyini.
Hazırdır ayağa durmağa onlar,
Mikelancelo da, vallah, mat qalar.
Danışır, danışır, Rəcəb danışır,
Başıma fikirlər dolur, qarışır,
Rəcəb-Mikelancelo, bu müqayisə
Mənə çox mətləbdən söyləyir nəsə.
Yenə dinləyirəm heykəlləri mən,
Biri başqasının alıb dilindən
Söyləyir ürəkdən öz daş duasın,
Görüb qarşısında böyük tanrısın.
Bütün suallara tapdım cavabı.
Qurtardı yaratmaq, yazmaq əzabı.

Sifarişim və ya son söz
Qardaş, heykəl yarat uca bir yerdə,
Yalçın qaya üstə dimdik zirvədə,
Tamam uzaqlardan çəksin diqqəti,
Yarat tanımağa qoca milləti.
Dədəm Qorqud kimi aqil ağsaqqal,
Nur çöhrəli olsun, həm Yusif camal,
Nizami hikməti, ağlı, zəkası,
Versin vücuduna ulduz ziyası.
Babam Şah İsmayıl qürur, vüqarı,
Koroğlu nərəsi, hayqırtıları,
Həkk eylə, qardaşım, həkk eylə daşa
Muğam duyumu ver, muğam birbaşa.
Elmdə, kəşfdə Nəsrəddin Tusi,
Göstər bunu aydın, göstər məxsusi.
Fizuli qəzəli dodaqlarında,
Nəsimi dözümü arzularında.
Yaşasın millətin tək hürriyyəti,
Fikri aydın olsun, məramı qəti.
Yarat, yalvarırm, dönüm başına,
Yarat, dizin-dizin gəlib qarşına
Qucaram, öpərəm ayaqlarını.
İlhamı, canını, sənət varını
Qoyub, bu milləti tanıt bəşərə,
Cavab ver böhtana, neçə min şərə.
Ta ki, səhvlərini qansın kor dünya,
Lazımsa, yar çıxar, qoyma sonraya.
Bu işə layiqdir təkcə ürəyin,
Yox sözüm, yox fikrim, başqa bir rəyim.
Bunu, sən, qardaşım, sən bacararsan,
Axı, aqil insan, Daş Tanrısısan.

***2022***